# Vətən, sevgi və... nifrət



Könül BÜNYADZADƏ,
AMEA-nın müxbir üzvü.

Bir aydır Vətən müharibəsi başlayıb. Ali Baş Komandan nisbi səfərbərlik elan etsə də, 10 milyonun hamısı səfərbər olub gözləyir. Bir aydır Vətənimiz damla-damla, addım-addım işğaldan azad olunur, başını qaldırıb gün işığına baxır, qəddini düzəldir. Əlverişli coğrafiyamıza, yeraltı, yerüstü sərvətlərimizə hər zaman xain əllər uzanıb və buna görə də torpaqlarımızda hər zaman qanlı müharibələr gedib. Millətimiz çox zalım düşmənlə üz-üzə, göz-gözə dayanıb, hər dəfəsində də, gec, ya tez öz kimliyini, mənliyini sübut edib, varlığını qoruyub saxlamağı bacarıb. Savaşlarda qəhrəmanlarımız yetişib, sülh zamanlarda isə qəhrəmanlıq dastanlarımız yazılıb. Hər dəfə Vətən torpağı oğullarının qanı ilə möhürlənib, anaların göz yaşı ilə qüsullanıb. Hər dəfə quru torpaq şəhid qanı ilə müqəddəsləşib, Vətən kimi təsdiqlənib. Ancaq bu dəfə düşmən görünməmiş bir məkrə, namərdliyə və... qorxaqlığa malikdir. Nə əsgərimizin gözünə baxa bilir, nə də diplomatlarının tutarlı dəlillərə cavab verən dili var. Əvəzində beşikdəki körpəni vurmaq üçün ballistik raket atır, mərmisini mal tövləsini yandırmaq üçün sərf edir. Döyüş meydanındakı uğursuzluqlarını arxa plana atıb, bir aylıq körpəni öldürməyindən, bir ailəni məhv etməyindən ehtizaza gəlib sevincindən küçələrdə atılıb-düşür. Bəli, bizim millətin belə xarakterdə, belə eybəcər portretdə ancaq bir düşməni var - haylar.

## Hayların nifrəti

Elə xalqlar var ki, vəhşiliyi törətməyi, vicdanına ömür boyu gəzdirəcəyi qara ləkə salmağı qürur bilir. Məsələn, tarixdə deyildiyinə görə, 12 oktyabr 1492-ci ildə Xristofor Kolumb tezliklə "Yeni dünya" adlandırılacaq qitənin adalarından birinə düşəndə onun əhalisi 100-145 mln. nəfər olub. İki əsr sonra əhalinin sayı 90% azalmışdı. Bu gün hər iki Amerikanın sağ qalmış "ən xoşbəxt" xalqları 5%-dən çox təşkil etmir. Ən yüksək mədəniyyətə sahib olduğunu car çəkən Fransa öz maraqları naminə 1945-ci ildə Əlcəzair əhalisinin 15%-ni qətl etmişdi. Maraqlıdır ki, vicdanındakı qanlı ləkəyə baxmayaraq, onlar dünyaya ədalət, mərhəmət dərsi keçməkdə davam edirlər. Bunlar artıq məlum olan faktlardır. Ancaq nədənsə hər zaman soyqırımı sözü ilə assosiasiya yaradan ikinci söz mənə haylardır. Yəqin ona görə ki, tarixdə bu sözü ən çox işlədən, eyni zamanda, soyqırımın ən dəhşətlisini törədən, üstəlik bununla fəxr edən onlardır.

Ensiklopedik məlumatlara görə, soyqırımı (genosid) - (yunanca genos - tayfa, nəsil və latınca caedo - öldürürəm) əvvəla, "əhalinin ayrı-ayrı qruplarının irqi, milli və dini zəmində məhv edilməsi", ikincisi, "insanlıq əleyhinə ən dəhşətli cinayət" deməkdir. Xüsusi məlumat kimi onu da deyək ki, müharibələr çərçivəsində aparılan, lakin müharibə qanunlarından kənara çıxan və tarixə soyqırımı adı ilə daxil olan hər hansı bir "xalqı məhvetmə" prosesi də mövcuddur ki, insanlıq baxımından heç bir çərçivəyə sığmır, nə heyvan, nə bitki, nə də minerallar arasında müşahidə edilir. İlk dəfə termin kimi 1945-ci ildə Nürnberq məhkəmə prosesində "müəyyən irq və onun təbəqələrinin, xalqların məhv edilməsi məqsədi ilə işğal edilmiş böl gədə irqi və dini qrupların əvvəlcədən düşünülmüş və sistematik şəkildə məhv edilməsi" kimi təqdim edilsə də və 1948-ci ilin 9 dekabr tarixində BMT-nin Baş Assambleyası tərəfindən "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzanın verilməsi haqqında" konvensiyanın qəbul edilməsinə baxmayaraq, belə hadisələr bu gün də etnik, dini və irqi qrupların məhv edilməsi şəklində rast gəlinir. Dəhşətli bir haldır ki, təqribən 100 il ərzində haylar azərbaycanlılara qarşı 3 dəfədən çox soyqırımı aktı törədiblər, yəqin bu səbəbdən belə bir formul beynimdə artıq daşlaşıb: haylar-soyqırımı törədən.

Soyqırımın səbəbləri fərqli olur: müharibə əməliyyatları zamanı vəhşiləşmiş əsgərlərin qarşısıalınmaz hərəkətlərinin "məntiqi davamı", müəyyən əraziləri ələ keçirmək məqsədilə həmin ərazidə yaşayan xalqların kütləvi şəkildə qırılması, dini barışmazlıq və öz dinini yaymaq naminə başqa etiqad sahiblərini sıxışdırmaq, yaxud şəxsiyyətə pərəstiş üzərində bərqərar olan, özünü digərlərindən yüksək dəyərləndirmək. Hayların türkə nifrətinin səbəbi isə çox bəsitdir. Əslində, bu, bir aksiomdur ki, bəsit təfəkkür sahibi dərin hisslərə malik ola bilməz. Elə bu bəsitliyin nəticəsidir ki, əlinə düşən hər imkanda soyqırımı törədir, içindəki yırtıcılıq hissi coşur, ibtidai aqressiyasını uşaq-qadın bilmədən özündən zəif hər kəsin üzərində reallaşdırmağa başlayır və bununla öz kimliyini təsdiqləyir. "Təsdiq metodlarından" çıxış etsək, belə qənaətə gəlmək olar ki, bu kimlik nifrət və aqressiya ilə qidalanır və başqa dəyər tanımır.

Hayların ilk dəfə nə zaman, hansı şərtlərlə Azərbaycan torpaqlarına yerləşdirilməsi faktlarını tarixçilərə həvalə edib biz başqa bir məsələyə, onların bizə nifrətinin köklərini araşdırmağa çalışacağıq. Haylar hər zaman özlərinin türklərdən əskikliyini gizlətmək üçün onları məhv etmək istəyir. Senekanın dediyinə görə, "kimə borclu olurlarsa, ona daha çox nifrət edirlər". Haylar da öz varlıqlarına görə bizə borcludurlar. Oturduğu torpağın, yediyi yeməklərin, danışdığı dilin, içində olduğu bütün mədəniyyət sahələrinin, qürur duyduğu tarixin tək sahibi türklərdir. Onlar məhz həqiqi sahibi yox etməklə bir növ öz "müəllifliklərini" qanuniləşdirəcəklərini zənn edirlər. Özlərini ən qədim xalq kimi təsdiq etmək üçün onlar özlərini qul, dilənçi, ən qədim peşə sahibi kimi təqdim etməyə razıdırlar. Bəzən bu rollarından imtina edib özlərini yəhudilərə bənzədib "seçilmiş xalq", "Tanrının övladları" olmaq iddiasına düşsələr də, genlərindəki həqiqəti - satqın qul olduqlarını dəyişdirə bilmirlər. Tarix boyu onların primitivliyini anlayan hər mütəfəkkir öz "ürək sözünü" deməyi özünə borc bilir. Puşkin kimi:

**Erməni! Meymun nəslinin nümayəndəsi**
**- sən sadəcə nəsillərin leşisən.**
**Təkamülün zəif bəndi,**
**sən güllələnməyə layiqsən!**

Haylar başqa millətlərdən də oğurluq etsə də, kimliklərinin formalaşmasında türklərin rolu daha çoxdur. Bu səbəbdən onlar məhz türkün həsədini çəkib, ona bənzəmək istəyirlər, ancaq ola bilmirlər. Çıxış yolunu isə malik olduqları bütün maddi və mənəvi sərvətlərin sahibini - türkləri, xüsusilə Azərbaycan türklərini məhv etməkdə görürlər. Onu da vurğulayaq ki, hayları bizlər qədər yaxşı tanıyan ikinci millət yoxdur, çünki malik olduqları hər şey bizimdir, çürük və yırtıcı mənəviyyatdan başqa. Məntiqli bir sual yaranır: onları çox gözəl tanıyan türklər nə üçün rəva görürlər ki, xalqı bu qədər tez-tez soyqırıma məruz qalsın? Bunun ən gözəl cavabı "Kitabi-Dədə Qorqud"da verilir: Beyrəyin qılıncının altından keçən Yalıncıq onu məhz kürəyindən vurur. Hər dəfə başının üstünü kəsən qılıncı görəndə haylar öz həqiqi üzlərini göstərirlər: rəzil, ən aşağı məqamdan da aşağıya qədər alçala bilən, ... həm də satqın. Mərd türk sadəcə öz qılıncını belə murdar qana batırmaq istəmir və ... tarix təkrar olunur.

## Düşmənə nifrət, yoxsa...

Nifrət emosiyalarla sıx bağlıdır. Emosiya isə ağılı passivləşdirən qara pərdədir. İstər-istəməz düşünməli olursan: hayların əlindən bu qədər zülm çəkəndən sonra gələcək nəsillərin biz görən dəhşətləri bir daha yaşamaması üçün onlara nifrət etməliyikmi? Daha da tədbirli tərpənib övladlarımıza nifrət etməyi, yeri gələndə öc almağı öyrətməliyikmi? Bir əli silahda böyütməliyik körpələrimizi? Əsla, ancaq bir neçə vacib, hətta zəruri məsələ var ki, gələcək nəslə az qala əmdiyi südlə verilməlidir.

Əvvəla, hər nəsil mütləq öz tarixini bilməlidir. üzərində durduğu bu torpağın altını da, üstünü də bilməlidir. Bilməlidir ki, bu günü olduğu millətin dünənində nə olub, gələcəyə nəyi götürməlidir.

İkincisi, milli kimliyini və dəyərlərini tanımalı, dərk eləməlidir. Bununla o, digər millətlər arasında həm özünü təsdiq etməyi, hörmət qazanmağı bacarar, həm də simasını itirmədən nəsil-nəsil öz varlığını davam etdirə bilər. Bu, bir günlük, bir saatlıq missiya deyil, birdəfəlik addım deyil, ömürlük bir dərs olmalıdır.

Nəhayət, üçüncüsü, dostunu, düşmənini tanımalıdır. Söhbət kiməsə müti şəkildə itaətdən, yaxud kor nifrətdən deyil, sadəcə rasional yanaşmadan gedir. Təqribən belə bir nümunə göstərmək olar. Uşaq vaxtından vəhşi heyvanları tanıdığı kimi, çaqqalın, goreşənin, yaxud ilanın nəyə qadir olduğunu bildiyi kimi, hayları da elə tanımalıdır. Təbii ki, insan çaqqala nifrət etmir, ancaq onunla qarşılaşacağı təqdirdə nə edəcəyini bilməlidir, onu öz təhlükəsizliyi naminə öz məhəlləsinə, yaxınına buraxmamalıdır. Bu, qətiyyən antihumanist addım deyil, çünki humanistlik insana yönəli hisslər, addımlardır, haylar isə öz əməlləri ilə human - insan adından könüllü şəkildə imtina ediblər.

Haylar dünyada ciddi qəbul olunmaq üçün hər şey etməyə hazırdırlar: ən qədim hökmdarın nökəri olmağa, körpəni qanına qəltan etməyə, ən qədim peşəni az qala qürur yerinə çevirməyə, düşmənini günahkar çıxarmaq üçün öz qardaşını amansızca qətl edib qarşıdakının boynuna qoymağa, ümumiyyətlə, ağlagəlməyən ən gözlənilməz xəbisliyə. Ancaq fakt budur ki, haylar hər zaman daha güclü tərəfin əlində yeri gələndə oyuncaq, yeri gələndə də xain planın bir detalı olublar. Məhz detalı, planın özü yox, çünki onların satqın mahiyyətləri üzərində plan qurmaq riskli addımdır. Onlardan lazımi qaydada və istənilən qədər istifadə etmək üçün sadəcə onlara öz yalanını danışmağa imkan vermək lazımdır. Dəstək vermək, yaxud inanmaq yox, sadəcə danışmağa imkan vermək. Mən burda hər hansı nümunə gətirməyəcəm, zatən tarixi faktları bilən oxucu özü xatırlayacaq.

Bəli, dünyada gözəlliklər olduğu yerdə, sevib-sevilmək, öyrənib kamilləşmək yerinə nifrət öyrətmək, qisasa hazırlamaq həmin nəslin bir insan kimi məhvi deməkdir. Hayların 11 və 17 oktyabrda Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə törətdiyi qətliam zamanı bütün ailəsini itirən körpələrə bir də ikinci zərbəni biz vurub onu nifrətlə böyütməməliyik. Onlar daha uca, daha saf və ülvi hisslərə layiqdirlər. Ancaq onların rəngli dünyasını qara boyamağa cəhd edən, bunu özlərinə həyat amalı seçən hayları tanımaq onların haqqıdır. Zatən çoxsaylı müharibələr, illərlə haqlı ola-ola haqsız durumda yaşamaq bizim millətin nə mərhəmətini, nə də yüksək mənəviyyatını məhv edə bilməyib, çünki genləri təmizdir, ülvidir.

Bernard Şounun da dediyi kimi, "nifrət qorxağın öz qorxusuna görə yaşadığı hissdir". Bizim millətin taleyi elə gətirib ki, ətrafımızda hayların olması ilə barışıb, yaşamalıyıq. Amma adımıza, tariximizə, mənəviyyatımıza layiq. Aslanın balası nə qədər kiçik, müdafiəsiz olsa da, aslandır. Çaqqalın arxasında bütün meşə yırtıcıları dursa da, çaqqaldır. Mən inanmıram ki, aslan çaqqala nifrət edə, ancaq ona da inanmıram ki, aslan nə vaxtsa, hətta yaralı olsa belə, çaqqala güvənib, ondan dəstək istəyə, sığına. Bu, bir həqiqətdir ki, aslan öz həyatında çaqqalı görmür, ancaq çaqqallar hər zaman aslanın dörd tərəfində dolaşır, həm onun artıq-urtuğu ilə dolanır, həm də onun bir gün zəif düşməsi məqamını gözləyirlər.